## III. MƏKTƏBƏ QƏBUL QAYDALARI

3.1. Azərbaycan Respublikasının ərazisində yaşayan və müvafiq yaşayış məntəqəsində qeydiyyatının olub-olmamasından asılı olmayaraq hər bir uşaq, yeniyetmə və gəncin Məktəbdə təhsil almaq hüququ vardır.

3.2. Azərbaycan Respublikasında yaşayan xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər qanunvericiliyə uyğun olaraq Məktəbə qəbul olunur və mövcud hüquqlardan istifadə edirlər.

3.3. Məktəbdə təhsilin müddəti müvafiq tədris planları üzrə aşağıdakı kimi nəzərdə tutulmuşdur:

a) musiqi alətləri sinfində - 5 il, 7 il
b) xanəndə**lik**, vokal, estrada **oxuma** siniflərində - 5 il
c) rəssamlıq sinfində - 4 il,
ç) xoreoqrafiya sinfində - 5 il,
d) xor sinfində - 7 il

3.4. 4 və 5 illik təhsil üzrə I sinfə uşaq və yeniyetmələrin qəbulu aşağıda göstərilən yaş həddi ilə müəyyən edilir:

- musiqi alətləri sinfinə **yaş həddi** 9 - 13;
- xanəndəlik, estrada **oxuma**, vokal sinfinə **yaş həddi** 8 - 13;
- rəssamlıq sinfinə **yaş həddi** 9 -12;
- xoreoqrafiya sinfinə **yaş həddi** 8 - 10;

7 illik təhsil üzrə I sinfə uşaq və yeniyetmələrin qəbulu aşağıda göstərilən yaş həddi ilə müəyyən edilir:

- musiqi alətləri sinfinə **yaş həddi** 7 - 9;
- xor sinfinə **yaş həddi** 7 - 13;

Yaş həddi müvafiq tədris ilinin 1 sentyabr tarixinə müəyyən edilir. Yaş həddi bir ay aşağı və ya bir ay yuxarı olan uşaq və yeniyetmələrin sənədləri direktorun razılığı ilə qəbul edilə bilər.

Yuxarıda göstərilən yaş həddindən 1 yaş aşağı və yaxud 1 yaş yuxarı olan xüsusi istedadlı uşaq və yeniyetmələr qəbul imtahanına buraxıla bilər.

3.5. Məktəbə ödənişli təhsil üzrə bütün ixtisaslara 7- **29 yaşlı** uşaq, yeniyetmə və gənclər qəbul edilə bilərlər.

3.6. Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərini, mərkəzlərini bitirmiş şagirdlər 11 illik musiqi, incəsənət məktəblərinə ixtisasları üzrə Məktəbə ayrılmış ümumi şagird qəbulu planı çərçivəsində VIII sinfə ixtisas və nəzəri fənlərdən imtahanların götürülməsi yolu ilə qəbul edilə bilər.

3.7. Məktəblərin şagird qəbulu planı buraxılış sinifləri şagirdlərinin sayı nəzərə alınmaqla direktorun ixtisaslar üzrə İdarəyə təqdim etdiyi təkliflərə əsasən Nazirlik tərəfindən müəyyənləşdirilir və may ayının 1-dək yerlərə göndərilir. İxtisaslar üzrə müəyyənləşdirilimiş qəbul planına uyğun sənəd toplanmadığı halda **İdarənin** razılığı ilə digər ixtisaslara sentyabr ayının 20-dək şagird qəbul edilə bilər. Məktəbin maddi-texniki bazası və maliyyə imkanları nəzərə alınmaqla İdarənin əsaslandırılmış təklifi ilə Nazirlik tərəfindən məktəblərin şagird qəbulu planı azaldıla və ya artırıla bilər.

Ödənişli təhsilə ixtisaslar üzrə şagird qəbulu planı məhdudiyyət qoyulmadan Məktəb direktoru tərəfindən tənzimlənir.

3.8. Nazirlik tərəfindən Məktəbə ayrılmış şagird qəbulu planına əsasən I sinfə, onbirillik təhsil üzrə VIII sinfə qəbul imtahanları hər il iyun və sentyabr aylarının 1-dən 10-dək keçirilir. İyun ayında qəbul planı yerinə yetirildiyi halda ərizə qəbulu dayandırılır və sentyabr ayında qəbul keçirilmir və ya daha çox uşaqların arasından istedadlı uşaqların seçilməsi məqsədi ilə iyun və sentyabr aylarında qəbul keçirildikdən sonra müsabiqə keçirib qəbulun nəticələri elan oluna bilər.

Məktəbdən şagird axını hesabına **qəbul planından əlavə** İdarənin təqdimatına əsasən Nazirliyin razılığı ilə I sinfə **şagird qəbulu imtahanları s**entyabr ayının 20-dək keçirilə bilər.

Qəbul **imtahan** protokollarının bir nüsxəsi sentyabr ayının 20-dən gec olmayaraq İdarəyə təhvil verilir.

3.9. Ödənişsiz təhsilə şagird qəbulu üçün sənədlər may ayının 1-dən **31**-dək və avqust ayının 25-dən 31-dək qəbul olunur. Məsləhət saatları may, sentyabr aylarında direktor tərəfindən təyin olunmuş günlərdə keçirilir.

3.10. Ödənişli təhsilə şagird qəbulu hər il **iyun və sentyabr aylarının 1-dən 10-dək, həmçinin oktyabr ayının 1-dən** noyabr ayının 30-dək qəbul imtahanı yolu ilə keçirilir **(oktyabr və noyabr aylarında keçirilən qəbul imtahanlarının günləri direktor tərəfindən müəyyənləşdirilir).**

3.11.Ödənişli təhsilə şagird qəbulu üçün sənədlər may ayının 1-dən **31-dək və avqust ayının 25-dən** noyabr ayının 25-dək qəbul olunur. Məsləhət saatlarının günləri direktor tərəfindən müəyyən edilir.

3.12. Məktəbə qəbul olunmaq üçün direktorun adına yazılan ərizədə uşaq, yeniyetmə və gəncin soyadı, adı, atasının adı, təvəllüdü, yaşayış yeri, ümumtəhsil məktəbi (və ya peşə, orta ixtisas, ali təhsil müəssisəsi), orada oxuduğu sinif, kurs və bölmə, valideynlərin iş yeri və əlaqə telefonları, habelə seçilən ixtisas göstərilməlidir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir:

a) doğum haqqında şəhadətnamənin və ya şəxsiyyət vəsiqəsinin surəti,

b) sağlamlıq haqqında tibbi arayış,

c) yaşayış yerindən arayış,

ç) 3x4 sm. ölçüdə iki ədəd fotoşəkil.

3.13. Məktəbə qəbul olmaq istəyənlər seçilmiş ixtisasa uyğun olaraq musiqi, (musiqi duyumu-eşitmə, yaddaş və ritm), xoreoqrafiya (fiziki hazırlıq və musiqi duyumu – eşitmə, yaddaş və ritm) və təsviri incəsənət (rəsm) üzrə qəbul imtahanı verirlər. Təsviri incəsənət üzrə imtahanın keçirilməsi üçün 2 saat vaxt ayrılır.

3.14. Məktəbə şagird qəbulu imtahanları direktorun əmri ilə təyin edilmiş komissiya tərəfindən keçirilir. İmtahan komissiyasına Məktəbin direktoru və ya tədris işləri üzrə direktor müavini sədrlik edir. Komissiya üzvlərinin sayı Məktəb direktoru tərəfindən müəyyənləşdirilir. Komissiyaya uşaq, **yeniyetmə və gənclərin** qabiliyyətinə **və fiziki hazırlığına uyğun** olaraq onun üçün musiqi alətini təyin etmək hüququ verilir.

3.15. İmtahanları müvəffəqiyyətlə verən uşaq, yeniyetmə və gənclər şagird qəbulu **üzrə** imtahan komissiyasının qərarına əsasən direktorun əmri ilə Məktəbə qəbul edilirlər. Müvəffəq qiymət alıb, lakin nisbətən az bal toplayan və ödənişsiz təhsilə müsabiqədən keçməyən uşaq və yeniyetmələr valideynlərinin razılığı ilə ödənişli təhsilə qəbul edilə bilərlər.

3.16. Qəbul imtahanlarının təkrar keçirilməsinə icazə verilmir.

3.17. Məktəbdən şagird axını hesabına ödənişli əsaslarla təhsil alan şagirdlər öz siniflərinə uyğun ödənişsiz təhsilə direktorun əmri ilə keçirilə bilərlər.

3.18. Məktəbin ümumi şagird kontingentinin sayından asılı olmayaraq, maliyyə imkanı yol verdiyi halda Məktəb rəhbərliyi köçürülmə yolu ilə başqa uşaq musiqi, incəsənət və rəssamlıq məktəbindən gələn şagirdləri müvafiq sinfə qəbul edə bilər. Bu halda şagirdin təhsil aldığı əvvəlki məktəbin arayışı, şagirdin fərdi vərəqəsi və Məktəbə ümumi şagird qəbulu zamanı tələb olunan digər sənədlər təqdim edilir (müvafiq tədris ilində Məktəbə I sinfə qəbul olub və sentyabr ayının 10-dək digər məktəbə köçürülmə yolu ilə qəbul olmaq üçün müraciət edən şagirdlərdən fərdi vərəqə tələb olunmur). Şagirdin köçürülmə yolu ilə qəbul olunacağı məktəbdən əvvəl təhsil aldığı məktəb hər hansı arayış tələb etmir.

Köçürülmə yolu ilə digər məktəbə qəbul olmaq istəyən şagird təhsil aldığı məktəbdən xaric olunduğu gündən bir ay müddətindən gec olmayaraq təhsil almaq istədiyi məktəbə müraciət etməlidir. **Üzürlü səbəb olmadan müəyyən edilmiş müddətdə hər hansı məktəbə köçürmə yolu ilə qəbul olmaq üçün müraciət olunmadığı halda şagird artıq məktəblərə qəbul edilmir.** ödənişli şöbəyə qəbul olunurlar